FÖVQƏLADƏ HALLAR NAZİRİ, GENERAL-POLKOVNİK KƏMALƏDDİN HEYDƏROV CƏNABLARINA

Çox hörmətli cənab nazir!

Sizi və Sizin şəxsinizdə ölkəmizin Fövqəladə Hallar Nazirliyi strukturunun bütün əməkdaşlarını peşə bayramınız münasibətilə ürəkdən təbrik edir və hər birinizə can sağlığı, dövlətimiz naminə gördüyünüz işlərdə uğurlar diləyirəm.

Cənab general-polkovnik!

Ölkəmizdə hər kəsə yaxşı məlumdur ki, Azərbaycanın Fövqəladə Hallar Nazirliyi yarandığı gündən ölkə həyatının bütün sahələrində öz vəzifəsini şərəflə yerinə yetirib və bu gün də yerinə yetirir. Sizin həmin quruma rəhbər təyin edildiyiniz dövrdən sonra nazirliyin iş görmə qabiliyyəti, faydalılıq əmsalı, bir az da konkret desəm, Azərbaycanda və onun hüdudlarından kənarda gerçəkləşdirdiyi xidmətlər həqiqətən təqdirəlayiqdir.

Bu gün ölkə prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuş nazirliyin ən zəruri avadanlıqlarla, texniki vasitələrlə təminatı, yaradılmış iş şəraiti həm ürəkaçandı, həm də qürurvericidi. Heç də təsadüfi deyil ki, Azərbaycan FHN-çiləri təkcə ölkə daxilində deyil, yaxın-uzaq məmləkətlərdə də öz bacarıqları ilə hər kəsi təəccübləndiriblər. Hətta Türkiyə prezidenti cənab Ərdoğan da Türkiyədəki sonuncu zəlzələ zamanı vurğuladı ki, başqa dövlətlər telefon açıb hansı yardımların lazım olduğunu soruşanda Azərbaycandan soruşdular ki, təyyarələrimiz hansı limanlara ensin. Bax, elə bu fikrin özü bizim Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının çevikliyinin, peşəkarlığının real göstəricisidir.

Cənab nazir!

Bu gün Fövqəladə Hallar Nazirliyinin əməkdaşları üçün Sizin rəhbərliyiniz altında reallaşan peşə təcrübəsi, yeni ixtisaslara yiyələnmək, müasir avadanlıqlardan, təcrübələrdən istifadə etmək işi bu qurumun nüfuzunu daha da artırır. Və ölkəmizdə indi hər kəs yaxşı bilir ki, FHN-çilər Qarabağ cəbhəsində, döyüş meydanlarında göstərdiyi igidliklə yanaşı, öz xidməti sahələrində də hər cür qəhrəmanlığa hazırdırlar. Və onlar bunu dəfələrlə sübut ediblər.

Çox hörmətli Kəmaləddin müəllim!

Bir daha Sizi və ölkəmizin ən önəmli strukturlarından biri olan Fövqəladə Hallar Nazirliyinin bütün əməkdaşlarını peşə bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Hörmətlə:
Aqil ABBAS,
millət vəkili